**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**ELMİRA AĞARƏHİM QIZI AXUNDOVA**

# İSLAM MUSİQİ MƏDƏNİYYƏTİNDƏ ƏL-FƏRABİNİN ELMİ-NƏZƏRİ TƏDQİQATLARI VƏ İXTİRALARI

6213.01 – Musiqi sənəti

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2016**

Dissertasiya işi Bakı Musiqi Akademiyasının “Musiqi nəzəriyyəsi” kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Gülnaz Abutalıb qızı Abdullazadə**
Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, fəlsəfə elmləri doktoru, professor

**Rəsmi opponentlər:** **Cəmilə İsmayıl qızı Həsənova**
sənətşünaslıq üzrə elmlər doktoru, dosent

**Əfsanə Ağayar qızı Babayeva**
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat:** **Azərbaycan İncəsənət Universiteti**
**“Musiqi tarixi və nəzəriyyəsi” kafedrası**

Müdafiə 18__ may 2016-cı ildə saat 14:00-da Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat ____ aprel 2016-cı ildə göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi,
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent **H.V.Məmmədova**

## DİSSERTASİYANIN ÜMUMİ XASİYYƏTNAMƏSİ

**Mövzunun aktuallığı.** İslam mədəniyyətinin yüksəliş dövründə – IX-X əsrlərdə ilk nəzəri musiqi yaradıcılarından olan əl-Fərabinin (870-850) antik irslə birləşən elmi-fəlsəfi baxışları, müsəlman ənənələri ilə var olan məntiqi açıqlamaları orta əsrlərin sonuna qədər İslam alimlərinin yeni ixtiralarına yol açmaqla yanaşı, Qərbi Avropada inkişaf yolu ilə davam etdirilmişdir. Onun nəzəri şərhləri musiqi incəsənətində yer alan kamil bilik nümunələri olub, ən kiçik ayrıntıları ilə Yaxın və Orta Şərq xalqlarının musiqi sənətinə daxil edilmiş, hər dövrün mədəni irsinə çevrilmişdir. Musiqini nəzəri qanunlar və fəlsəfi açıqlamalarla şərh edən ustad əməli təcrübələrində istifadə etdiyi çalğı alətlər qrupuna ud, qanun, rübab və Bağdad tamburu ilə birgə şahrud və Xorasan tamburunu da daxil etmişdir.

İslam fəlsəfəsində bütün biliklər zəminində rasional-Aristotelə (e.ə.384-322) istinad edib, bünövrəsi əl-Kindi ilə qoyulan məntiqi düşüncə axınının ikinci qurucusu – əl-Fərabi təfsirlərinin müasir tədqiqatçıları onun fəlsəfə, astronomiya, musiqi biliklərinin düşüncə və nəticə amilləri ilə gerçəkləşən təhlillərini, çoxşaxəli elmi mülahizələrini bu gün də araşdırır, gündəmə gətirirlər. Ustadın nəqli təfsir ənənələrinə söykənən "ahəngli musiqi" (melodiya) şərhləri fərqli yanaşma və yeni musiqi terminologiyası ilə yaranmış xüsusi sənət nəzəriyyəsidir.

Bu gün istər Şərqdə, istərsə də Qərbdə əl-Fərabinin musiqi bilgiləri ilə zəngin olan çoxsaylı risalələri özündən sonra meydana gələn musiqi ədəbiyyatlarının ilk elmi qaynaqları arasında yer alır. Geniş mənalarla qələmə alınmış "İhsa`əl-Ulum Mu`si`ka əl-Kəbir" (Böyük musiqi bilikləri), "Kita`b əl-Mu`si`ka əl-Kəbi`r" (Böyük musiqi kitabı), "Kitab`ül-Fi'l Mu`si`ka" (Musiqi elmləri), "Əl-Madhal Fi'l-Mu`si`ka" (Musiqi elmlərinin təsnifatı), "Kitab`ül-Ustukisat İlm əl-Mu`si`ka" (Musiqi elmlərinin mənşə-yi), "Kitab Fi'l İhsa əl-İka Kitab`ül Mu`si`ka" (Musiqi ritminin təsni-fatları), "Nazari`yya əl-Mu`si`ka" (Musiqi nəzəriyyəsi) risalələri musiqi elminin mükəmməl tədqiqatlarıdır.

Ustadın yaradıcılığını tədqiq edənlər, onun yazdığı çoxsaylı əsərlərdən yalnız biri ("Kitab əl-Musika əl-Kəbir") ilə əl-Fərabi amalını – Yaxın və Orta Şərqdə təməli qoyulan "sistemli musiqi nəzəriyyəsi"ni böyük təcrübə göstəricisi kimi qəbul edirlər. Müəllifin "İlm əl-Mu`si`ka" (Musiqi elmi) və "Nazariyy`a əl-Mu`si`ka" (Musiqi nəzəriyyəsi) risalələri də musiqi nəzəriy-yəsi, musiqi tarixi, səslənmə, alətşünaslıq və musiqi estetikası haqqında də-rin bilgilərlə zəngindir. Əl-Fərabinin nəzəri-məntiqi mükəmməlliyinin zir-

vəsi olan “Kita`b əl-Mu`si`ka əl-Kəbi`r” (Böyük Musiqi Kitabı) və “Nazariyya əl-Mu`si`ka” (Musiqi Nəzəriyyəsi) traktatlarında apardığı müstəsna terminoloji incələmələr, kamil ixtiralar, elmi mühakimə və həqiqi dəlillər ardıcıllığı ilə yer alan nəzəri musiqi bilikləri hər dövrdə aktual, müasir və diqqətəlayiq olub, musiqişünaslıq intizamını, elmin çoxşaxəli nəzəri üslublarını əks etdirmişdir.

Tədqiqatın aktuallığı Abu Nasr əl-Fərabinin məntiq və nitq açıqlamaları ilə məna qazanan elmi təfsirlərini, nəzəri biliklər təcrübəsini, çalğı alətlərinə tətbiq edilən təkmil ixtiralarını araşdırmaq, zamanla Yaxın və Orta Şərq, eləcə də Azərbaycan mədəniyyəti ilə təşəkkül etmiş musiqi irsi ənənələrini qeyd etmək, biri digərilə əvəzlənən yeni tədqiqat və nəzəriyyələrin, təkmil mülahizələrin təfərrüatlı bilgilərinə sahib olmaq, aparılan tədqiqat nəticələrini paylaşmaqdır.

IX–X əsrlərdə İslam mədəniyyəti ilə zirvəyə yüksələn nəzəri musiqi bilikləri Azərbaycanda Səfiyyəddin Urməvi (1216-1294), Əbdülqadir Marağai (1360-1435), Əbdüləziz Çələbi (1405-1485), Fətullah Şirvani (1417-1486), Mahmud Çələbi (vəfatı 1531) və Mir Möhsün Nəvvab (1833-1918) yaradıcılığı ilə izlənilmiş, keçmiş elmi qaynaqlardan doğan nəzəri düşüncələr – daha çox səs pərdələrini birləşdirən mürəkkəb səs sistemləri, yeni interval və tetraxord tərkibləri, melodik dönmələrin təyinedici intonasiyaları hər dövrün sənət bilgiləri ilə inkişaf etmişdir.

XX əsrin birinci yarısında müxtəlif sivilizasiyalar qovşağında yerləşib, Şərq və Qərb mədəniyyətinin güclü təsirini üzərində hiss etdirən Azərbaycanda keçmiş nəzəri qanunlar və yeni mənbələrlə şəkillənən təkmil musiqi nəzəriyyəsi musiqişünas-alim, publisist, dramaturq, pedaqoq, ictimai xadim və bəstəkar Üzeyir Hacıbəylinin (1885-1948) təfsirlərilə qələmə alınmış, milli lad sisteminin bilgiləri, Avropa klassik ənənələri və estetik prinsipləri ilə uzlaşan muğamların elmi metodologiyası müasir musiqi nəzəriyyəsi ilə formalaşmışdır.

“Musiqi elmi”nin xüsusi məna qazanması əsrlərlə var olan bilgilər arasında təzad yaratsa da, yüksəlməkdə olan bu elmin yeni səviyyəsini və müstəsnalığını ifadə etmişdir. Ənənəvi irsə sadiqlik nümayiş etdirən, musiqi elminə yerləşən bilik qaynaqlarından yararlanan nəzəriyyəçi alimlər öz çalışmaları ilə mənəvi-intellektual mədəniyyətin fərqli istiqamətlərini əks etdirə bilmişlər.

Qeyd etmək lazımdır ki, tədqiqatın ümdə məqsədinə çevrilən nəzəri musiqi bilik sisteminin inkişaf tarixi – əski və çağdaş musiqi bilgiləri ətrafında cərəyan edən tarixi-etnoqrafik mədəniyyətin, yerdəyişən mənəvi dəyərlərin, çeşidlənərək yayılan iddialı müəllif nəzəriyyələrinin, müxtəlif

fəlsəfi düşüncələrin, genişlənən elmi nailiyyətlərin aşkara çıxarılması və öyrənilməsi hər zaman aktual olduğu qədər mühümdür.

**Mövzunun işlənmə dərəcəsi:** əl-Fərabi şərhlərində tələb olunan nəzəri mülahizələrin ardıcıl, nizamlı izahına, mövzunu təhlil edən həqiqi, müvazi (paralel) və zidd düşüncələrə şərtlənmişdir. Tədqiqatlarda əl-Fərabi yaradıcılığının izində olub, onun traktatlarını tərcümə, yaxud şərh edən Şərq mütəfəkkirlərinin, Qərb və rus ərəbşünaslarının – H.C.Farmer[1], Netton Riçard[2], M.Əl-Hafni, H.A.M.Haşab[3], Mahfuz Hüseyn Ali, Əl-Yasin Cafar[4], Mubahat Türker Küyel[5], Hilmi Ziya[6], Döğen Şaban[7], İsmail Hakkı Ozkan[8], C.D. Daukeyeva[9], A.B.Cumayev[10], İ.Zemtsovski[11], o cümlədən Azərbaycanın musiqişünas və alimlərinin – Ü.Hacıbəylinin[12], M.S.İsmayılovun[13], S.Abdullayevanın[14], R.Zöhrabovun[15], Z.Səfərovanın[16], G.Abdullazadənin[17],

---

[1] Farmer H.C. XIII yüzyıllıqda Arab Müzik Tarihi. Londra., 1929. Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi., 12. C.

[2] Netton Richard. Farabi ve okulu. (Çev.Mehmet Vural) Ankara. Elis Yay., 2013.

[3] Əl-Farabi Kitab əl-Musika əl-Kabir (Böyük Musiqi Kitabı). H.A.M. Haşab, M.A. əl-Hafninin təf və təq. "Dar al-Kutub vua Vuasaiq al-Qoumiyya" Qahirə, 1967.

[4] Mahfuz Hüseyn `Ali, Al-Yasin Cafar. Fi`l-kiraa Fara`bi masa`dir al`-arabiyya (Arap Kaynaklarında Ferabi Teorisi) İstanbul. Kitapyurdu,1975.

[5] Mubahat Türker Küyel. Aristoteles ve Farabinin Varlık və Düşüncə Öyrətiləri. Ank., 1959.

[6] Hilmi Ziya Ülken. İslam Felsefesi Kaynaqları və Etkiləri Eski Yunandan Çağdaş Düşüncəyə Doğru. Ülken yay., 1998.

[7] Döğen Şaban. Müslüman İlim Öncülüri Ansiklopedisi. Ank.Yeni Asya Yayınlarış., 1984.

[8] İsmail Hakkı Ozkan. İlk Türk Musiki Nazariyyatı ve Üsulları (Kudüm Velveleleri).İstanbul., Ötüken Neşriyat 1994.

[9] Даукеева С.Д. Философия музыки Абу Насра Мухаммада аль-Фараби. Алма-Ата., 2002.

[10] Джумаев А.Б. Вопросы музыкальной эстетики в трудах Средного Востока IX-XII веков. Ташкент., 1981.

[11] Земцовский И.И. Учение о форме аль-Фараби и актуальные вопросы анализа тузыкальной формы. Нови Сад. 1987.

[12] Hacıbəyli Ü. Azərbaycan xalq musiqisinin əsasları. Azərb. Dövlət Musiqi nəşriyyatı. B., 1962.

[13] Ismayılov M.S. Azərbaycan xalq musiqisinin janrları. Bakı, 1984.

[14] Abdullayeva S. Azərbaycan folklorunda çalğı alətləri. Bakı, Adiloğlu, 2007.

[15] Zöhrabov R. Muğam. B. Azərnəşr, 1991.

S.Ağayevanın [18], R.H.Mustafayevin, [19] Ə.Mirəhmədovun [20] çoxsaylı elmi ədəbiyyatları və nəzəri tədqiqatları incələnmiş, dissertasiyanın fəaliyyət istiqaməti və konsepsiyası müəyyənləşdirilmişdir.

Antik musiqi bilikləri ilə ilk yeni ədəbiyyatlar yaradan Abu Nasr əl-Fərabi irsinin davamçılarının – Səfiyəddin Əbdülmömin Urməvinin, Əbdülqadir Marağainin, Mir Möhsün Nəvvabın İslam mədəniyyətilə uzlaşan ənənəvilik anlayışı, elmi inkişaf və tarixi mənbələrlə dəyər qazanan təkmil musiqi bilikləri, nəzəri musiqi traktatları sənətşünaslıq doktoru, professor Zemfira Səfərovanın tədqiqat və yazılı qaynaqları ilə işıqlandırılmışdır. Lakin orta əsrlərin tərəqqi və inkişaf dövründə musiqi incəsənətinə yeni təfəkkür yerləşdirən, sənət axtarışları ilə yeni nəzəriyyələrə yol açan əl-Fərabi yaradıcılığının antik irs mərhələsi, İslam qanunları ilə var olan elmi baxışları, nəzəri musiqi bilgiləri respublikamızda mütəmadi keçirilən elmi konfrans və simpoziumlarda gündəmə gəlsə də, əsaslı şəkildə tədqiqat obyektinə çevrilməmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Təqdim olunan dissertasiyada ilk dəfə əl-Fərabi konsepsiyasının – "sistemli musiqi nəzəriyyəsi"nin və "mükəmməl melodiya kompozisiyaları"nın nəzəri fərziyyə, müddəa və ardıcıl mülahizələrinin, səs sistemi və melodiya özəlliklərinin – səs ahənglərinin, kompozisiya qanunauyğunluqlarının, çalğı alətlərinin, ritm mövzularının, musiqi terminalogiyasının "ölçülü", "aqil və nüfuzlu" məntiq göstəriciləri ilə araşdırılıb üzə çıxarılması, orta əsrlərin musiqi tədqiqatları ilə başlayan irsi nəzəri düşüncələrin və yeni, təkmil ixtiraların işıqlandırılmasıdır.

---

[16] Səfərova Z. Fətullah Şirvani. Musiqi məcəlləsi. "Şərq-Qərb" nəşriyyatı. Bakı., 2006; Şəfiyəddin Urməvi. Kompozisiya nisbətləri və ritm elmi haqqında şərəfiyyə risaləsi. "Şərq-Qərb" nəşriyyatı. Bakı, 2006; Şəfiyəddin Urməvi. Kitabül-Ədvar. "Şərq-Qərb" nəşriyyatı. Bakı, 2006.

[17]Abdullazadə G. Musiqi sənətinin fəlsəfi mahiyyəti. B."Yazıçı" nəşriyyatı,1983., Qədim və orta əsrlərin musiqi mədəniyyəti. B., Qartal,1996.

[18] Ağayeva S. Risale-i musiki-Abdürrahman-i Cami. // İslam Araştırmalar Merkezi Ansiklopedisi. İstanbul, 2008; Ə.Marağainin "Came əl-Əlvan" və "Fəvaid-i əşərə" risalələri. // "Azərbaycan musiqi tarixi" (Qədim dövrdən XX əsrə qədər) kitabında. B., Şərq-Qərb, I cild. 2012.

[19] Mirəhmədov Ə. XIX əsr Azərbaycan mədəniyyəti. Tarix və fəlsəfə institutunun materialları B., 1955.

20. Mustafayev R.H. Orta əsrlər müsəlman sivilizasiyasında bərabərlik problemi. B.,"Təknur". 2010.

IX–X əsrlərdə ətraf mədəniyyətlərlə birləşib, irqi mədəniyyətdən siyasətə qədər bütün sahələrdə – həm tarixi-etnoqrafik, həm də mənəvi dəyərlərin çeşidlənərək yayıldığı bir zamanda əl-Fərabi öz nəzəri musiqi traktatlarında daha çox tədqiqat önünə keçib, elmi məqsədləri cavablayan struktur əsaslandırmaları – təqdim olunan elmi təməllər və araşdırmalar ifadəsi, mövcud nəzəri düşüncə və tənqidə qabil zəka ilə elmi-tədqiqatlar təmayülünün təcrübə və nəzəriyyələrini bu müddəalarla təyin etmişdir:

– etik-estetik dəyərlərlə ifadə olunan şərhlər və ümumelmi tədqiqatlar məcmusuna daxil olan nəzəri bilgilərin əməli yaradıcılıq əsasları (musiqi teoremləri və tərifləri) kimi təqdim edilməsi;

– yaranan melodiyada musiqi bütünlüyünün "ahəng" və "ölçü" ənənələrini mühafizə edən xüsusi təfsirlər və onların inkişaf aspektləri;

– insan əli və ya səsilə hasil olmuş musiqi ahəngini məlahətli icra, yaxud imitasiya (təqlid) edən "qeyri-təbii çalğı alətləri"nin (dövrün əməli musiqi üslublarını nümayiş etdirən – ud, tambur, mizaf, rübab, qanun və mizmarın) ifa imkanları;

– insan avazı və çalğı alətləri ilə təsbit edilmiş səs uyğunluğu, bu təcrübəyə tətbiq olunan nəzəri bilgi və əməli üslublar;

– mükəmməl bilik nəzəriyyəsinə nüfuz edən musiqinin məntiqlə yaratdığı "elmlər təsnifatı", vahid və çoxsahəli elmlər birliyi.

Əl-Fərabi "Böyük musiqi kitabı"nda nəzəri fərziyyələr ardıcıllığını müəllifi olduğu "Elmlərin təsnifatı" risaləsinin beş nəzəri incəsənət məcmusu ilə əsaslandırmışdır:

– musiqi sənətinin müqəddimə və özülləri;

– musiqi sənəti elementləri;

– onların çalğı alətlərinə tətbiq edilməsi;

– təbii ritmlər;

– musiqi ahənglərinin bədii nitqlə birləşməsi.

Təfsirlərində fəlsəfi mülahizələri daim önə yerləşdirən əl-Fərabi musiqi bilikləri metodologiyasını da bu sahənin inkişaf qanunları ilə şərh etmişdir:

– musiqinin məntiqi tədqiqat müddəaları və onlara sistemli yanaşma;

– musiqi quruluşunun nəzəri-fəlsəfi ifadələri;

– musiqi predmetinin (maddənin) bütünlük və qarşılıqlı tamamlanma məntiqi ilə tədqiq edilməsi.

**Dissertasiyanın məqsəd və vəzifələri:** dəyərli mənbələr və çeşidli elmi yanaşmalarla tədqiq edilən mövzunun əsas məqsədi türk-İslam intizamı ilə yaşayıb, "hər göy üzü ağıla, hər hərəkətli göy cismi ağıllı ruha sahibdir" deyən mütəsəvvif mütəfəkkir Abu Nasr əl-Fərabinin dünya filosof və

musiqi nəzəriyyəçiləri tərəfindən incələnən elmi-fəlsəfi musiqi şərhləri və təkmil ixtiraları haqqında məlumat vermək, antik biliklər, bədii (estetik) mədəniyyət qanunları və təlim düşüncələri ilə yaranmış əl-Fərabi musiqi tədqiqatlarının səciyyə, məqsəd və təhlil vasitələrini araşdırmaq, yaradıcılıq təzahürü olan elmi nəzəriyyələri təqdim etməkdir. Bu icra aşağıdakı **vəzifələrlə** tamamlanmışdır:

– İslam intibah dövrünün mədəniyyət tarixi;

– orta əsrlərin "elmlər-təlimi" və "nəzəri musiqi bilikləri" təcrübəsində əl-Fərabi şərhləri;

– məntiqi bilik tədqiqatlarında musiqi terminologiyası, etik-estetik və bədii dəyərlər;

– əl-Fərabinin musiqi təsnifatları – tərkib, təhlil və əməli üslublar;

– Şərq musiqi incəsənətində təbii, qeyri-təbii səslərin və çalğı alətlərinin ifadə məramları.

– əl-Fərabinin nəzəri musiqi qaynaqları və elmi irsin təkmil tədqiqatları.

**Tədqiqatın metodu və metodoloji əsasları**. Dissertasiyada əl-Fərabi musiqi nəzəriyyəsinin metodoloji (tədqiqi, terminoloji və fəlsəfi) açıqlamaları, müəllifin "Böyük Musiqi Kitabı" və "Musiqi Nəzəriyyəsi" traktatlarında yer almış nəzəri musiqi bilikləri, çalğı alətlərini səciyyələndirən səs hasilolma özəllikləri, səs və makamları (lad) təsvir edən musiqi işarələri, əski nəğmələr, əlyazmalar və əbcəd (hərfi, riyazi hesablama) sistemilə qələmə alınmış bilgi qaynaqları incələnmiş, tədqiqatın forma, məzmunu nəzəri-hermenevtik və təcrübi metodlara əsaslanmışdır.

Musiqi incəsənətini məntiqin bir növü kimi qəbul edən əl-Fərabinin nəzəri musiqi biliklərini, fəlsəfi mülahizələrini, terminoloji şərh və məntiq ardıcıllığını tədqiq edərkən, Yaxın Şərq mədəniyyətinin intellektual cizgilərini və yaradıcılıq istiqamətini təyin edən filosof-nəzəriyyəçilərin – İhvan əs-Səfa (X əsr) və İbn Haldunun (XIV-XVəsr) təfsirləri incələnmiş, orta əsrlərdə əməli fəaliyyət və zəka yarışı ilə hasil olan klassik ədəbiyyat tədqiqatçılarının – Badauviy Abd-ər-Rahman, Əl-Bəkri Adil, Səlim Hüseyn, Hamid Naseem, M.Əl-Hafni, Nasir Adbul Haşab, Mahfuz Hüseyn Ali, Əl-Yasin Cafar, H.C.Farmer, Netton Riçard, Mubahat Türker Küyel, Hilmi Ziya, Arel Sadettin, Döğen Şaban, İsmail Hakkı Ozkan, Ahmed Cevizli, Ahmed Arslan, Özcan Nuri, C.D.Daukeyeva, A.B.Cumayev, A.Mes və İ.Zemtsovskinin nəzəri metodları izlənilmiş, məzmunu ilə tədqiqata yaxın olan bütün elmi baxışlar dəyərləndirilmişdir.

Yenə bu xüsusla, Yaxın və Orta Şərq musiqi tarixinə töhfələr verən Səfiyəddin Əbdülmömin Urməvinin (XIII əsr), Əbdülqadir Marağainin

(XIV-XV əsr) M.Möhsün Nəvvab (XIX-XX əsr) və Ü.Hacıbəylinin (XIX-XX əsr) nəzəri musiqi traktatlarına, o cümlədən sənətşünas, tədqiqatçı və alimlərin – M.S.İsmayılovun, S.Abdullayevanın, R.Zöhrabovun, Z.Səfərovanın, G.Abdullazadənin, S.Ağayevanın, R.H.Mustafayevin və Ə.Mirəhmədovun elmi yaradıcılığına, Z.Bünyadov, M.Qasımov, C.Cəfərov və E.Nəsirovun tarixi araşdırmalarına müraciət edilmiş, "Azərbaycan incəsənəti – XII cild", "Azərbaycan folkloru antologiyası – I kitab" bilik mənbələri və orta əsr musiqi mədəniyyətinin dolğun məlumatları ilə tədqiqat mövzusunun metodoloji bazası yaradılmışdır.

**Dissertasiyanın obyekti –** İslam mədəniyyətinin ilk təməl bilikləri, məlum tarixlərdə "musiqi elmi"nin nüfuz qazanması, incəsənətdə cəmlənən bilgilər arasında yaranmış təzadlarla yanaşı, yüksəlməkdə olan əl-Fərabi təfsirlərinin yeni səviyyə və müstəsnalığı, Şərqdə ilk nəzəri və əməli təcrübələrin təşkili, musiqi sənətinin inkişaf qanunları, musiqi irsi mədəniyyəti və türkəsilli mütəfəkkirlərin orijinal dünyagörüşləri ilə meydana gələn elmi-nəzəri şərhlərin yaranmasıdır.

**Predmeti** – antik nəzəriyyə ənənələri və orta əsr təfsirləri, özünəxas musiqi terminologiyası və bədii təfəkkür yaradıcılığı ilə Yaxın və Orta Şərq musiqi tarixini inşa edən Abu Nasr əl-Fərabinin nəzəri musiqi qaynaqları və elmi irsidir.

**Tədqiqatın faktiki materialı.** Bilikləri elmi və əməli təlimlə uzlaşdıran əl-Fərabinin nəzəri musiqi düşüncələri "Maktab al-Asad" (Hafiz əl-Əsəd – Dəməşq., S.Ə.R.) kitabxanası"nın "Al-Hadhava Al-Eslamiah fi Alasaur al Vusat" (Orta əsrlər – İslam Mədəniyyəti) qismində yer alan Abu Nasr Muhamməd əl-Fərabinin "fusha" – yüksək ərəb qrammatikası ilə qələmə alınmış "Kita`b əl-Mu`si`ka əl-Kəbi`r" (Böyük Musiqi Kitabı) və "Nazariyya əl-Musika" (Musiqi Nəzəriyyəsi) risalələrinin müasir örnək yazılı qaynaqları ilə tədqiq olunmuşdur.

**Dissertasiyanın elmi-təcrübi əhəmiyyəti.** Tədqiqatın nəzəri və metodik əhəmiyyəti Abu Nasr əl-Fərabinin dəqiq və müfəssəl nitqi, maraqlı mülahizələri, elmi təsbit və əsaslanmaları ilə hasil olan traktatlarında ardıcıl təfsirlərlə məna qazanan – "səs müstəsnalığı", "nəğmə "beytləri", "melodiya və söz uyğunluğu", "səsləndirmə fərqləri", "səs ahənglərinin birləşməsi", "melodiya gəzişmələri" (improvizasiya)", "mükəmməl nəğmələr", "lad tədqiqatları", "səs yüksəkliyi sistemi" və "interval nəzəriyyəsi" bilik məcmularının müasir musiqi ədəbiyyatları və tədris proqramlarına daxil edilməsi, İslam mədəniyyətinin yaradıcılıq qanunları ilə formalaşan Şərq musiqi mədəniyyətinin bədii, estetik, fəlsəfi keyfiyyətlər və elmi-məntiqi mülahizələrlə öyrənilməsidir.

**Dissertasiyanın aprobasiyası.** Tədqiqat Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında yerinə yetirilmiş, "Musiqi tarixi" və "Musiqi nəzəriyyəsi" kafedralarının ümumi iclasında müzakirə edilmişdir. Tədqiqatın müddəaları bəzi tezis və məqalələrdə əks olunmaqla, müxtəlif elmi məcmuələrdə, dövri nəşrlərdə və beynəlxalq konfrans materiallarında dərc edilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, iki fəsil, altı yarımfəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və internet mənbələrindən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Giriş** bölümündə dissertasiyanın aktuallığı əsaslandırılır, onun işlənmə dərəcəsi və elmi yeniliyi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, təcrübi əhəmiyyəti müəyyənləşdirilir.

Təqdim edilən dissertasiyanın **I fəsli "Orta əsrlərdə təşəkkül etmiş musiqi mədəniyyəti mənbələri"**adlanıb, 3 yarımfəsildən təşkil olunmuşdur. **1.1."İslam intibah dövrünün mədəniyyət tarixi"** bölümündə İslam mədəniyyətinin parlaq çağları (750-1258) – elm məbədgahının inşa dövründən, bu tarixlərdə ərəb xilafətinə daxil olan bölgələrin bağımsız sənət mərkəzinə çevrilməsindən, bütün məntiqi elmlərin, ədəbiyyat (özəlliklə poeziya), incəsənət, dəqiq və səmavi biliklərin geniş vüsət almasından, İslam alimlərinin özünəməxsus nəzəri musiqi tədqiqatlarından bəhs edilir.

Əməvi xanədanlığında (661-751) daha çox Bizans mədəniyyətinin təsiri ilə baş qaldıran elm və sənət sahələri Abbasilər dövründə (750-1258) Sasani mədəniyyət irsilə inkişaf etməyə başlamışdı. Orta əsrlər İslam mədəniyyətinin yetişdirdiyi dühaların, mükəmməl bilik və çoxsahəli sənət üslublarının böyük inkişaf mərhələsi idi. Güclü mədəniyyət təməllərinə başçılıq edən bilik və sənət mütəfəkkirləri tarix səhnəsində böyük qətiyyət nümayiş etdirir, elmi-mədəni inkişaf cərəyanında birləşirdilər. Miskin coğrafiyadan mürəkkəb bir dünyaya istiqamətlənən, elm marağında olan topluluqlar mədəniyyətinə sirayət edən güclü təsir, öncə bəsit anlayış və maraqlarla meydana çıxır, zamanla mükəmməl özəlliklərlə zənginləşirdi[21].

Bu dövrün bədii həyatını işıqlandıran əlamətlərdən biri, saray zəkaları və yaradıcı seçkinlərin təşkil etdiyi elm və ədəbiyyat mövzularının müzakirə olunduğu, bədii qiraət və qəsidələrin, yaxud bədahətən ifa edilən

---

[21] Hilmi Ziya. İslam Felsefesi Kaynaqları və Etkiləri Eski Yunandan Çağdaş Düşüncəyə Doğru. Ülken yay., 1998, s.74

bəstələrin səsləndiyi “məclislər” idi[22]. X əsrin birinci yarısında yaranmış gözəl sənətlərin çeşidli və özünəxas cizgiləri artıq musiqi alimləri və ifaçıları arasında dərk edilirdi. Onlar antik biliklər və fəlsəfənin təsirində qalsalar da, mövcud mirası öz mədəniyyət və düşüncələri ilə zənginləşdirir, orijinal bir musiqi ədəbiyyatı var edirdilər. Orta əsrlərin musiqi nəzəriyyəsində yer alan “ərəbdilli” musiqi ədəbiyyatları Yaxın və Orta Şərqdə vüsət almış musiqi mədəniyyətində elmi qaynaqların başlıca ifadəsi idi. Musiqi nəzəriyyəsi yaradıcılarının bir çoxu ərəb kökənli olmasa da (Abu`l Fərəc əl-İsfahani – 897-967, Abu Nasr əl-Fərabi – 870-950, İbn Sina – 980-1037, Səfiyəddin Urməvi – 1216-1294, Əl-Marağai – 1399-1436), bu sənət məbədgahında onların hər biri İslam mədəniyyətini təmsil edirdi.

Bu illərdə musiqinin mənəvi sahəsi İslam ibadət musiqisi ilə təşkil olunmuşdu; müsəlman ənənələrində bu istiqamətin digər (“musika” və “ğina”) anlayışlardan ayrılmasını təmin etmək və dini musiqi ayinlərinin xüsusi söz birləşmələri (“mağbir” Quran, “azan” – namaza çağırış, “məhlil” və “məlbiyya” – mədh etmə) və ifadə qanunları ilə oxunması qəbul edilmişdir[23].

IX–X əsrlərdə fəlsəfi, dəqiq, səmavi biliklər və bütün gözəl sənətlərin inkişaf etdiyi bir zamanda nəsr və şeir dili kimi inkişaf edib, şifahi ənənələr vasitəsi ilə meydana gələn fövqəladə musiqi anlayışları tədricən dəyişir, yazılı qaynaqlara, musiqi risalələrinə doğru istiqamətlənirdi. Musiqi incəsənətinə nüfuz edən nəzəri düşüncələr artıq rəngarəng mövzuları, janrları əks etdirə bilirdi. İslam mədəniyyəti qədim ənənələrin ərəb lüğəti ilə genişlənir – bədii, elmi, tarixi mənbələrə söykənən biliklər özü ilə ədəbi ahəngin izlərini daşıyırdı. Abbasilər dövründə “ədəb” və ona yaxın ədəbiyyat növlərilə birgə musiqi haqqında “elmi-nəzəri düşüncə” üslubları da inkişaf etməyə başlamışdır.

İslam intibahının gerçəkləşdiyi tarixlərdə yaşayıb-yaratmış Yaqub ibn İshaq əl-Kindi (801– 874) musiqi sənəti bilgiləri ilə özündən sonra gələn bir çox zəka izlərinə işıq salmışdır. Ona qədər bəstələnən musiqi nümunələrini peşəkar əmək kimi qəbul etməyən nəzəriyyəçi-alim musiqi kompozisiyalarının ilk qaydalarını tərtib etmiş, bunu öz dövrünün mədəniyyət zövqünə uyğunlaşdırmışdır.

Bu zaman içərisində qələmə alınan “Musiqi risalələri” musiqi nəzəriyyəsində baş qaldıran sorğuların elmi təhlil və təfsirləri idi. IX –X əsrlərdə “Beyt-ül hikmə” (hikmətlər evi) təhsil mərkəzində bütün elmlərlə yanaşı,

---

[22] Мец А. Мусульманский Ренессанс. Восточная литература М., Наука., 1973, с.29.
[23] Süleyman Uludağ. İslam ve Musiki. Bayram Akdoğan İslam ve Musiki Sanatı, Makale, inceleme, araştırma. Ankara. Yeni Türkiye Yayınları, 2014, s.37.

musiqi ilə bağlı qədim yunan mənbələrinin suriyan və ərəb dillərində gerçəkləşən tərcümə və şərhləri İslam alimlərinin öz sələflərinə duyduğu sonsuz marağın göstəricisi idi.

Antik bilgilərlə ilgilənən İslam alimləri Qədim yunan üslublarının bir çox cizgilərini qəbul edib, o dövrün musiqi elminə meyillilik nümayiş etdirsələr də, öz təlim düşüncələri ilə mükəmməl bir nəzəriyyə üslubu – musiqinin riyaziyyat intizamı ilə şərh olumasını, nəzəri musiqi tədqiqatlarının məqsəd və vəzifələrini, onların təhlil vasitələrini, ən nəhayət, bu incəsənətin təməl mədəniyyətini yarada bilmişdilər.

Musiqi sənətinin çoxsahəli məntiqi açıqlamaları musiqi elmində "Muallim-i Sani" (Aristoteldən sonra ikinci ustad – "magistr sekundus") kimi tanınan Abu Nasr əl-Fərabi yaradıcılığı ilə işıqlandırılmışdır. Qədim yunan alimləri – Aristotel, Femistius və Oklidin əsərlərini tərcümə edib, bəzi bilik və məlumatları dövrü üçün yetərsiz görən, onları elmi məntiqilə tamamlayan əl-Fərabi musiqi tarixində müstəsna yer qazanmışdır. Onun tədqiqatlarında musiqi incəsənətinin etnik özünəməxsusluğu xüsusi janr mənbələri ilə izlənilmiş, yaradıcılığında ənənəvi ərəb nəğmələri ilə bərabər türk instrumental musiqi nümunələrinə də yer verilmişdir. Orta əsr mədəniyyətinin vacib mövzularını əks etdirən əl-Fərabi risalələri qüdrətli xilafətin miras aldığı mədəniyyət və İslamaqədərki müsəlman ənənələri ilə var olan musiqi bilikləri idi.

Abbasilər hakimiyyətinin ilk illərində nəzəri və əməli düşüncələrin bir çoxu İslam mədəniyyətinin məhdudiyyətlərinə məruz qalsa da, musiqi incəsənətində instrumental və səsli-nəzm (əl-ğina) fəaliyyət növləri ilə birgə bədii və əməli qaydaların təqdimat üslubları təkmilləşirdi. Musiqi incəsənətinin nəzəri bilikləri ilk İslam alimlərinin "musiqi elmləri" (ilm əl-mu`si`ka) ilə müəyyənləşmişdi: əl-Kindi "Musiqinin yaranma nəzəriyyəsi" risaləsində udda lad ardıcıllığını bədii bir dillə təsvir etmiş, Abu`l Fərəc əl-İsfahani təlim almış səs (vokal) mədəniyyətinin sirlərini bölüşmüş, əl-Hvarizmi "Elmlərin açarı" məlumatlar toplusunun musiqi bölümündə ifada istifadə edilən alətşünaslıq (tanbur, çanq, şahrud, surnay və s.) və ritm mövzusunu işləmiş, əl-Fərabi isə "Böyük musiqi kitabı"nda X əsr musiqi incəsənətinin xarakterik xüsusiyyətlərini dolğun bir məntiqlə açıqlamışdır[24].

I fəslin ikinci bölümündə **1.2."Orta əsrlərin "elmlər təlimi" və nəzəri musiqi bilikləri təcrübəsində əl-Fərabi şərhləri"** incələnir. Böyük ali-

---

[24] Даукеева С.Д. Философия музыки Абу Насра Мухаммада аль-Фараби. Алма-Ата. 2002, с.22.

min antik irs mərhələsi ilə bütünləşən kamil elmi baxışları və müsəlman ənənələri ilə var olan tətbiqi nəzəriyyələri orta əsrlərin sonuna qədər inkişaf yolu ilə davam etmiş, müxtəlif dövrlərdə yeni, təkmil ixtiralara yol açmışdır. Onun tədqiq etdiyi musiqi bilikləri – lad, ritm, interval növləri, musiqi əsərlərinin yaranma nəzəriyyəsi, səslərin bədii xassələri, ahəng uyğunluqları musiqi incəsənətinə daxil olan mükəmməl bilgi nümunələridir.

Fəlsəfəni elmlərin anası adlandıran ustad, bu düşüncə təsiri ilə antik dövrdən orta əsrlərə qədər bütün elm şaxələrinin eyni kökdən qaynaqlanıb, biliklər arasında müəyyən əlaqənin olduğuna inanırdı.

Əl-Fərabi nəzəriyyələrinin məna və açıqlamaları onun məlumat qaynaqları, ifadə və anlayış əsasları ilə qavranılmışdır. Bu sıralanmanın mərkəzində "marifa" (dərk etmə) və "ilm" (bilik, elm) terminləri əsas yer tutmaqdadır. Böyük filosof nəzəri məntiq mükəmməlliyinin zirvəsi olan "Kitabu-Sanat`ül İlmi`əl-Mu`si`ka" (Kitab əl-Mu`si`ka əl-Kəbir) risaləsində səsləri, təbiəti, varlığı, şeir vəznlərini, melodiya növlərini, müxtəlif çalğı alətlərini və musiqi ilə bağlı bir çox mövzuları işıqlandırmış, Şərq mədəniyyətinə parlaq bir elm bəxş etmişdir. Zəngin bilgilər məcmusu olan bu əsərdə səslər fiziki və mənəvi bilik dəlillərilə təhlil edilmiş, ud, tanbur, rübab, qanun, mizmar alətlərinin xarakterik özəllikləri, bu alətlərin səs tembrləri və ifa imkanları müqayisəli şəkildə açıqlanmışdır.

Risalədə musiqi terminləri ilə bərabər nəzəri mülahizələr də böyük önəm qazanır. Əl-Kindi qaynaqlarından yararlanan əl-Fərabi burada musiqinin nəzəri məntiqinə və fəlsəfi açıqlamalarına özəlliklə diqqət yetirmişdir. Ustadın musiqini tədqiqetmə səbəbləri digər elmlər təhlilinə nüfuz edən "mövcud" qanunlara şərtlənmiş, musiqi riyaziyyatın bir bölümü kimi "elmlər təlimi"nə daxil olmuşdur.

Fərabinin sistemli izahlarında tez-tez rastlanan "ilm" və "marifa" ilə yanaşı, "sina" – incəsənət anlayışı da başlıca əhəmiyyət kəsb edir. Fərabi incəsənəti – istedad, hazırlıq və fəaliyyət nəticəsi, lütf olunan – "təfəkkür nitqi" kimi səciyyələndirmişdir.

Musiqi incəsənəti üslublarını iki sahə ilə müəyyənləşdirən əl-Fərabi bu təcrübə növlərini – əməli fəaliyyət (hay`a əməliyy`a – fa`ila) və nəzəri bilik (hay`a nazariyya – a`lima) adlandırmışdır. Ustadın təfsirlərində əməli fəaliyyət özlüyündə daha iki – ifa (`ada) və bəstə (si`qa) qisminə bölünmüşdür: "İfa –musiqi ahənginin dinləyici zövqünə uyğun duyğu və

hisslərlə icra edilməsi, bəstə isə – musiqi ahənginin yaranma üslubudur”[25].

Əl-Fərabinin musiqi şərhləri onun məntiqi təyini və nəzəri mülahizələri ilə açıqlanmışdır: “Əməli sənət növləri olan – bəstə (siqa əl-əlha`n), ahəngli ifa (a`da əl-əlha`n) – ruhda zühur edən təsəvvür meyarları ilə hasil olan fəaliyyət, “nəzəri musiqi sənəti” – insan ruhu ilə yaranmış ahəngli musiqini təqib edən “düşüncə şəkli”dir”[26].

İstər təbii alətlərdə (insan qırtlağı), istərsə də süni yolla hazırlanmış çalğı alətlərində səslə hasil olan biliklər, Fərabi musiqi nəzəriyyəsində – “əməli musiqi elmi“ adlanmışdır. Ustada görə, “musiqi – melodiyalarla izhar olunan, fikir və hissləri təqdim edən və bu icra ilə daha mükəmməl, daha gözəl keyfiyyətləri birləşdirən “incə sənətdir”. “Musiqi ahəngləri ilə ifadə olunan bu sənət iki keyfiyyətdən təşkil olunmuşdur: birincisi – duyğuları oxşayan, tamamlanmış musiqini əks etdirən sənət, ikincisi – duyğuların icra etmədiyi, sadəcə, qəlibə salınmış musiqi ahənglərini yaradan sənət”[27]. Fərabi bunların hər ikisini “əməli musiqi sənəti”nə aid etsə də, risalələrində ikinci qisimdən tez-tez söz açıb, iki melodiya arasındakı fərqi onların təsir gücü ilə əlaqələndirir: “qulaq – bir-birinə uyub-uymayan bəm və zil səslər birləşməsindən yaranmış musiqi ahəngini eşidir, seçir, beyinə və ruha ötürür”[28].

**1.3.“Əl-Fərabinin məntiqi (əqli və nəqli) bilik tədqiqatlarında musiqi terminologiyası, etik-estetik və bədii dəyərlər“** yarımfəslində böyük alimin “Kitabu`l əl-Mu`si`ka əl-Kebir” əsərində mərhələli nəzəriyyə ifadələri fərqli metodoloji baxışlarla işıqlandırılmış, “musiqi sənətinin elementləri” maraqlı mülahizələrlə şərh olunmuş, mövzular elmi yanaşma prinsipləri ilə təhlil edilmiş, əl-Fərabi musiqi sənətinin nəzəri təsviri verilmişdir.

Qərb alimlərinə görə, “Kitabu`l əl-Mu`si`ka əl-Kəbir” əsərində təqdim olunan səs sistemləri qədim yunan musiqişünaslarının nəzəri təcrübələrindən fərqlənir, belə ki, burada səslərin daha dəqiq və müfəssəl təhlilinə diqqət yetirilmişdir. Orta əsrlərdə Şərq musiqi səslənməsinə xas olan tetraxordlar öz rəngarəng mikroxromatik interval axıcılığı, lad çalarları və

[25] Əl-Farabi Kita`b əl-Mu`si`ka əl-Kabi`r (Böyük musiqi kitabı). H.A.M. Haşab, M.A. əl-Hafninin təq. “Dar al- Kutub vua Vuasaiq al Qoumiyya” Qahirə,1967, s.55. كتاب الموسيقى الكبير /الفيلسوف أبى نصر الفارابي, تحقيق و شرح - غطاس عبد المالك خشبه في ١٩٦٧ دار الكتب و الوثائق القومية، القاهرة

[26] Yenə orada s.55.

[27] Yenə orada s.59.

[28] Yenə orada, s.62.

intonasiya fərqləri ilə önə çıxırdı. Səslərin bu özəllikləri əl-Fərabinin misilsiz lad quruluşu nəzəriyyəsindən də qaynaqlanırdı[29].

Ətraflı bilgilər toplusu olan bu risalədə musiqi mövzuları iki qisimlə təqdim olunur. Mərkəzi bölümdə musiqi incəsənəti əsasları ilə bağlı sorğular, onları cavablandıran təfsir və məlumatlar, "bu sənətin növləri" bölümündə isə alətşünaslıq, musiqi əsərlərinin yaranması və əməli təcrübə nəzəriyyələri yer alır. Əsərin bu bölümü ("bu sənət növləri") üç hissənin – "Musiqi sənətinin elementləri" (Fi ista`kisat sina`a əl-mu`si`ka), "Yayılmış çalğı alətlərinin səslənmə xüsusiyyətləri" (Fi` l-alət əl-maşhu`ra ya n-nağam əl-maxsu`sa fi`-xas) və "Sadə musiqi ahənglərinin yaranma nəzəriyyəsi" (Fi`t-ta`lif əl-əlhan əl-cuz`iyya) başlıqları ilə birləşmişdir.

"Musiqi sənətinin elementləri" bölümündə incələnən "elementlər" termini – "istakisa`t" antik fəlsəfədən doğmuş yunan söz birləşmələrinin ərəb ifadə şəkli ilə açıqlanır. Birinci hissənin iki fəsli – "musiqi sənətinin elementləri" və bu element özüllərinin təhlilləri çoxsahəli təcrübə və nəzəri biliklərlə birləşmiş, mükəmməl şərhlərlə məntiqə köçürülmüşdür.

"Yayılmış çalğı alətlərinin səslənmə xüsusiyyətləri" adlanan ikinci hissə – orta əsr alətşünaslığının ümumi mənzərəsini, alətlərdən hasil olan xoş və qəbul edilməyən səslərin təhlil və təsnifatını əks etdirir. Burada Fərabi təfsirlərinin əsas özəlliyi kimi önə çıxan "mükəmməl" anlayışı "daha yaxşı" (ah`san) və "üstün" (af`dal) meyar keyfiyyətlərini əks etdirmişdir. Ustadın musiqi sənəti ilə bağlı olan bütün kamil düşüncələri öz təcrübələri vasitəsi ilə mənimsənilən nəzəri "özüllər"i və "tədqiqatlar"ıdır.

Risalənin üçüncü, tamamlayıcı – "musiqi ahənglərinin yaranma nəzəriyyəsi" bölümündə musiqi əsərlərində əməli tətbiqlər (özüllər və bu sahədəki tədqiqatlar) xarakterizə olunur – lad, ritm və kompozisiya quruluşu nümunələrindən misallar təqdim edilir.

Əl-Fərabi öz nəzəri musiqi lüğətilə, mənbələrin – istilah (termin) və anlayışların sərbəst, rəvan izahı ilə dolğun bir terminoloji sistem yaratmışdır. Bu tədqiqatlarda bənzər və zidd mənalarla ifadə olunan qoşa – "zil-bəm", "səs-ahənglilik", yaxud "ahəng-ritm özəllikləri", "mülayim-qərarlı musiqi tetraxordları", "zəif-qüvvətli tetraxordlar", "yüngül-ağır ritm dayanacları", "birləşmiş-ayrılmış səs düzümləri", "bərabər, qeyri-bərabər tetraxordlar", "dəyişən-dəyişməz səs düzümləri" – nəzəri musiqinin bədii surətini təcəssüm etdirir.

---

[29] Земцовский И.И. Учение о форме аль-Фараби и актуальные вопросы анализа музыкальной формы Нови Сад (Югославия), 1987, с.14.

Böyük alim musiqi ilə bağlı bütün elmi-nəzəri ixtiralarını mahir ifaçısı olduğu ud alətində gerçəkləşdirmişdir. İnterval növlərinin təhlili ud ladlarında bu intervalların yerləşmə qaydaları ilə incələnmişdir.

Əl-Fərabinin nəzəri musiqi tədqiqatlarında əks olunan fəlsəfi, etik-estetik terminologiya məcmusu musiqinin elmi metodologiyasını, bu bilik nəzəriyyəsinin əsas müddəalarını və tədqiqat üsullarını nümayiş etdirmişdir.

Dissertasiyanın **II fəsli "Şərq musiqi ədəbiyyatlarında metodoloji və nəzəri-tətbiqi təfsirlər"** adlanıb, üç yarımfəsildən ibarətdir. **2.1."Əl-Fərabinin musiqi təsnifatları – tərkib, təhlil və əməli üslublar"** başlığı ilə yer alan bölümdə dissertasiyanın ən özəl və geniş mövzuları – təməldən tədqiqatlara qədər nəzəri məntiqlə incələnən lad, interval, tetraxord, səs düzümləri, ritm anlayışları və kompozisiya qaydaları haqqında məlumat verilir.

Əl-Fərabinin şərhlərində bədii səslər məcmusu kimi ifadə olunan "melodiyalar" (əlhan) termini "nəğmə" və "oxuma sənəti" (ğina) kimi də təyin qazanmışdır. Musiqi kompozisiyasının nəzəri təhlillərində melodiya – "oxunan musiqi" (ləhn ğina`iy) fərqli səs və söz birləşmələri – "ahəngdar ardıcıllıq" və ya "lad" kimi anlaşılır. "Kitabu`l əl-Mu`si`ka əl-Kəbir" əsərində lad nəzəriyyəsini geniş şəkildə təhlil edən əl-Fərabi musiqi təlimi bölümlərindən birini – "əl-lahn" adlandırmışdır. Səs sürəkliliyinin (davamiyyətinin) həcm və əlaqə keçidlərini işıqlandıran digər bölüm – "əl-ıqaa`" – ritm mülahizələri ilə yer almaqdadır. Risalədə "səs yüksəkliyi" mövzusu da geniş mənalarla əhatə olunmuş, tetraxord və interval növlərinin əsas xassələri – "cam" (səs düzümü), "tabaka" (səsin yüksəlmə dərəcəsi) "tamdid" (ton) "tamzic" (dəyişmə) "intikal" (keçid) ərəb terminləri ilə işarələnmişdir. Antik lad nəzəriyyələrinə istinad edən müəllif mövcud anlayışları ərəb terminləri ilə əvəz etmiş, xüsusi əlamətlər daşıyan çeşidli makamları öz səslənmə meyarları ilə açıqlamışdır.

Əl-Fərabinin lad tədqiqatları – səs xassələri, səs hasiletmə üsulları, həmçinin ahəngli və ahəngsiz səslənmənin həmhüdudluğu ilə yaranmışdır. "Kitabu`l əl-Mu`si`ka əl-Kebir" risaləsində lad nəzəriyyəsini səslərin yüksəklik dərəcəsi və onların fəaliyyət dairəsi təşkil edir. Risalədə müəllifin öz təyini ilə müəyyənləşən interval (bu`d, masa`fa) – səs dərəcələri və qavrama meyarları ilə təsbit edilən iki müxtəlif səsin cəmidir. İntervallarda yaranmış ahəngli və ardıcıl birləşmələr – "uyğunluq" (iktir`an), "başvermə" (tarti`b) üslub və əlamətlərilə fərqlənir: "Uzlaşma – iki və ya daha çox səsin müştərək səslənməsi, başvermə isə dinləmə anında səslərin əvəzlənməsi-

dir”[30]. “Bənzətmə üslubu”nu anladan müəllif, ahəngli səs uzlaşmalarını şüşə qədəh və şərab rəngi ilə (mavi və al qırmızı çalarlarla), ahəng ardıcıllığını ilmələrlə toxunmuş əlvan naxışların əvəz edilməsilə müqayisə etmiş, ahəng uzlaşmasını və səs ardıcıllığını “birlik” (ittifa`q), qeyri-uzlaşmanı – “ixtilaf” (təna`fur) adlandırmışdır.

Sözügedən risalədə əsas mövzulardan biri də səs düzümüdür. Burada ladların inşa elementləri olan tetraxordların (cins) – interval növləri təhlil edilmiş, iki və daha az intervaldan yaranan tetraxordlar kimi, səs düzümlərinin (cam) də iki, daha çox tetraxord və səs məsafələrindən təşkil olduğu açıqlanmışdır.

Musiqidə “keçid” (intika`l) növləri Fərabi tədqiqatlarında birmənalı deyil, çeşidli şərhlərlə izah edilmişdir.



“Musiqi ahəngləri özülləri”nin – oktava, kvinta, kvarta intervallarının kənar və sabit səslərini tədqiq edən müəllif nəticələri oxucuları ilə paylaşmışdır: “Məsafə (interval) növlərinin kənar səsləri hər məsafənin keçid əsası olan “ahəngli musiqi özülləri”dir. Dörd səs birləşməsində onların sayı üç, beş səsdə dörd, səkkiz səsdə yeddidir”[31].

Ustadın şərhlərində keçidlərin başqa bir sahəsi – “ahəngli dönmələr” musiqinin təyinedici hərəkət nümunələri olub – müstəqim keçidlər” (nukla`ala`istika`ma), “meyilli keçidlər” (nukla`ala`in`itaf), “yönələn keçidlər” (nukla`ala`istida`ra) və “dönən keçidlər” (nukla` ala` inirac) öz ifadə mənaları ilə incələnmişdir.

Lad nəzəriyyəsinin ən vacib mövzularından biri olan “mikroxromatik səslər” (olduqca kiçik hissələrə bölünmüş “komalar”) əl-Fərabi təfsirlərində öz dəqiq təhlilləri ilə yer almaqdadır. Burada keçmiş ənənələrlə yaranan ən kiçik intervallar riyazi əsaslar və ərəb məntiqilə yenidən tədqiq olunmuş, mikroxromatik səs tərkiblərinin dinləmə yolu ilə təsbit edilən ahəng müstəsnalığı misallarla izah edilmişdir. Əl-Fərabinin ritm nəzəriyyəsi ilə bağlı tədqiqatları bu mövzuya həsr edilmiş nəzəri bilgilər məcmusudur. Onun risalələrində əks olunan ritm cizgiləri tamamən ərəb ənənələri ilə təhlil olunub, anladılmışdır.

Orta əsr nəzəriyyəçilərinin musiqi şərhləri dövrün sənət zirvəsinə

[30]Əl-Farabi Kita`b əl-Mu`si`ka əl-Kabi`r (Böyük musiqi kitabı). H.A.M. Haşab, M.A. əl-Hafninin təq. “Dar al- Kutub vua Vuasaiq al Qoumiyya” Qahirə., 1967, s.180.
[31]Yenə orada, s. 477.

ucalan əruz (`aru`d) və poeziyanın (şi`r) birliyilə yaranırdı. Rəvan və ahəngli ərəb nitqində dilin səs tərkibini araşdıran səs məlumatları “sərf” və “nəhv” izahları ilə musiqili-nəzəri təfsirlərə daxil olmuşdu. Musiqi ilə əzəli vəhdətdə olan “arud” vəzninin əmsalı təyini ritmə təsir etməklə, onun varlığını müəyyənləşdirmişdir[32].

Risalədə ritm nəzəriyyəsini əhatə edən “ıqaa” anlayışı – bəlli ritm quruluşları və surəklilik üsullarının mənaları ilə açıqlanmışdır.



Ritm özəlliklərini qeyri-bərabər ritmik zərbələrlə səciyyələndirən ustad onların fərqli – “sadə” (basi`ta) və “mürəkkəb” (murakk`aba) növlərindən söz açmış: “Bu növləri əldə etmək istəyən hər kəs bizim hesablama nümunələrimizi təqib edərsə, zərbələrin qarışıb, uzlaşması maneə yaratmaz, axı, bu sənətdə istifadə edilən təcrübənin ən böyük hissəsi birləşən ritmlərdir”[33] – demişdir.

Əl-Fərabinin “ta`lif əl-əlha`n” – “mükəmməl ahənglərin yaranması” və ya “tamamlanmış ahənglər” mövzusu çoxşaxəli nəzəri sistemi əks etdirir. Bu mərhələdə müəllifin özünəməxsus təfsirləri ilə nəzəri kompozisiyanın bir çox mövzuları – musiqi bütünlüyünün “tərtib” və tərkibi” (melodiyanın yaranma səbəbləri), onu var edən birinci və ikinci dərəcəli özəlliklər, ahəngli musiqilərin beyt və qəsidələrlə müvəffəq olduğu nəticələr “düzülüş” bölümünün şərhlərilə təqdim edilmişdir. Orta əsrlərdə qələmə alınmış bütün bəstələr əruz vəznilə ucalan ərəb poeziyası ilə şəkillənirdi.

X yüzillikdə vüsət almış bədii musiqi nailiyyətləri bu incəsənətin əsas və vacib məqsədlərindən idi. Bəlkə bu səbəbdən, əl-Fərabi şərhlərində nəğmə tərkibləri hər zaman musiqi və sözlərin qarşılıqlı təsir meyarları ilə təhlil edilmişdir.



---

32 Фролов Д.В. Классический арабский стих: история и теория аруда. «Наука», М., 1991, с. 59.

33 Əl-Farabi Kita`b əl-Mu`si`ka əl-Kabi`r (Böyük musiqi kitabı). H.A.M. Haşab, M.A. əl-Hafninin təq. “Dar al- Kutub vua Vuasaiq al Qoumiyya” Qahirə, 1967, s.962.

**2.2. "Əl-Fərabinin klassik musiqi nəzəriyyəsinə daxil etdiyi təsvir məcmusu: təbii, qeyri-təbii səslərin və çalğı alətlərinin ifadə məramları"** adlanır. Orta əsrlərdə "mükəmməl ahənglərin yaranması" və onların mənşəyi haqqında bilgi verən əl-Fərabi bu anlayışın təsir səbəblərini hərtərəfli təhlil etmiş, təbii özüllər və hissi qavrayış mülahizələrini "təbii ahənglər" mövzusunun şərhləri ilə anlatmışdır: "Təbiətə xas olanlar – hər zaman, yaxud çox hallarda, bütünlükdə ona aid olan şəraitdir. Ahəngdarlıqlar – insanın təbii duyğularıdır, bu duyğularla eşidən insan zamanla öz dolğunluğuna nail olur. Qavramanın imkanları kamilliyə ucalırsa, duyğular zövq (lazza) alır, idrak qeyri-təbii şəkildə meydana çıxırsa, qəbul etməmə duyğusu (`aza) yaşanır. Bu səbəblə əmələ gələn ilk incə zövqlər kamillik işarətləri, insanın hər zaman sahib olduqları isə təbii əlamətlər hesab edilir"[34].

Ahəngliliyin bəxş etdiyi zövq (lazza) anlayışı əl-Fərabinin çoxsahəli şərhlərində geniş mənalarla önəm qazanır. Ustadın fikrincə, zövq verən musiqi ahənginin yaranma səbəbi, bu ahəngin duyğulara sirayət etməsi, onun qavranılmasıdır.

Mövzunun genişləndiyi təfsirlərdə musiqi ahənglərinin təsir səbəbləri üç təməl növü ilə açıqlanmışdır. Bunlar – zövq bəxş edən ("mulizza") musiqilər, duyğulandıran (infi`aliyya") və simaları təsvir edən ("muxayilla") musiqilərdir.

Əl-Fərabi yaradıcılığının daha bir istiqaməti melodiyaları səsləndirən çalğı alətləri ilə bağlı tədqiqatlara yönəlmiş, insan əli ilə yaranan "qeyri-təbii çalğı alətləri" nin ifa imkanları incələnmişdir.

Ustadın "Kita`b əl-Mu`si`ka əl-Kəbi`r", "İhsa` əl-Ulu`m əl-Kəbi`r" və "Kitab Fi`lhsa`əl-Iqaa" risalələrində çalğı alətlərilə bağlı təfərrüatlı bilgilər yer almaqdadır. Bu mövzu müfəssəl mənaları ilə təfsirlərdə özünəxas dəlillərlə təcəssüm olunmuşdur. Fərabiyə görə, oxunan musiqi ahənglərində makamların (ladların) zəngin, parlaq və xoş səslənib, qavranılmasının başlıca səbəbi dinlənən musiqinin çalğı alətlərilə, onlardan hasil olan səslərlə müşayiət edilməsi idi: "Bunun fərqində olanlar səs hasil edən bütün icra növlərində ahəngli musiqinin bənzər səslənməsini aramaqda idilər. Musiqi ahənglərinin daha səlis səslənməsini arzulayıb, səs hasiletmədə zaman-zaman qüsur edənlər, ifa və səs kifayətsizliyinin səbəbini ud və digər alətlərin meydanagəlmə dövrünə qədər müəyyənləşdirə bilmədilər. Nəhayət, əməli musiqi

---

[34] Əl-Farabi Kita`b əl-Mu`si`ka əl-Kabi`r (Böyük musiqi kitabı). H.A.M. Haşab, M.A. əl-Hafninin təq. "Dar al- Kutub vua Vuasaiq al Qoumiyya" Qahirə, 1967, s.46.

sənəti musiqi ahəngi ilə uzlaşdı, səslərin təbii, yaxud qeyri-təbii, ahəngli (mula`ima), yaxud ahəngsiz (qayr-mula`ima) xassələrə bölünməsi musiqi alətlərinə də sirayət etdi, qənaətbəxş, yaxud kamil səslənənlər təsbit edildi”[35].

Əl-Fərabi təfsirlərində bütün təcrübə, ixtira və nəzəri üslublar öz sədası ilə insan səsinə yaxın olan udun simlərinə tətbiq edilsə də, digər musiqi alətləri haqqında yer alan bəhslərdə fərqli bacarıqlar – dəfdə (“sina`a darb əd-dufu`f”), təbildə (“ət-tubul”), sancda (“əs-sunu`c”) çalma sənəti, ovuclarla hasil olan səslərlə müşayiət etmə (“sina`a ət-təsfik”) və rəqs (sina`a ər-raks”) haqqında bilgilərlə də məlumatlanırıq. Dövrün yayılmış tanbur, mizaf, rübab, mizmar çalğı alətləri ayrı-ayrılıqda ustadın təfsirlərində öz ifa imkanları ilə şərh olunmuş, əməli musiqi üslublarını nümayiş etdirmişlər.

İnsan və alət səslərinin uyğun və fərqli keyfiyyətlərini dilə gətirib, təbii sədaları təqlid edən rübab, ud və mizmarın növlərini tanıdan əl-Fərabi dəf və bu qəbildən olan alətlərdən bəhs edərkən, onların musiqini yalnız zərbələrdən hasil olan səslərlə müşayiət etdiyini, udun isə insan səsi ilə oxuduğunu vurğulayır.

Əl-Fərabinin “bu sənətdə səslər və onların yerləşmə tədqiqatları məhdudlaşmır, mənimsənilən təbii və qeyri-təbii səslər nöqteyi-nəzəri ilə öyrənilir”[36] şərhilə musiqi sənətində duyğu, təhlil, nəzəri əsaslar və əməli təcrübələrlə var olan bu iki ahəng növlərinin bir üsulla deyil, onların birləşməsi ilə dərk edildiyi anlaşılır.

**2.3. “Əl-Fərabinin nəzəri musiqi qaynaqları və elmi irsin təkmil tədqiqatları”** dissertasiyanın son bölümü olub, İslam mədəniyyətinin yaradıcılıq qanunları daxilində əl-Fərabi nəzəri bilgilərinin təsiri və mənəvi-intellektual ənənələrın istiqamətilə Yaxın və Orta Şərqdə yaranan yeni nəzəri musiqi ədəbiyyatlarından bəhs edir.

Antik nəzəriyyələrə və şifahi musiqi anlayışlarına söykənən əl-Fərabi risalələri nəzəri incəsənətin ilk mükəmməl elmi təfsirləri kimi qəbul edilsə də, Şərqdə bu bilik sisteminin yeni tədqiqat və şərhləri, təkmil ixtiraları türkəsilli “parlaq zəkalar”ın ənənə ardıcıllığı ilə davam etmişdir.

Elmi fəaliyyəti boyunca Bağdadda və Misirdə bir çox tələbə yetişdirən əl-Fərabidən sonra fəlsəfə və musiqi aləminə atılan Abu-Zəkəriyyə Yahya bin Adiy (1203-1249) və yalnız Fərabinin yazdığı əsərlərin mütaliəsi ilə

[35] Yenə orada, s.498.

[36] Əl-Farabi Kita`b əl-Mu`si`ka əl-Kabi`r (Böyük musiqi kitabı). H.A.M. Haşab, M.A. əl-Hafninin təq. “Dar al-Kutub vua Vuasaiq al Qoumiyya” Qahirə, 1967, s.786.

yetişən İbn Sina (980-1037) ustadın musiqilə bağlı elmi baxışlarını, elmlər təsnifatında musiqiyə verdiyi istiqamət yolunu və nəzəri musiqi mülahizələrini öyrənirdi. Musiqini öz sələfi əl-Fərabi kimi riyazi fənlər arasında görən İbn Sinanın "Əş-Şəfa" və "Ən-Nəcat" risalələrində musiqi bilgilərinin yer alması XI əsr musiqi incəsənəti üçün maraqlı olduğu qədər, həm də dəyərli idi. "İnsan ruhu musiqi ilə müalicə edilməli" qayəsinə yönələn İbn Sinanın musiqi anlayışı və bu incəsənətin fəlsəfi, estetik mahiyyəti professor Gülnaz Abdullazadənin düşüncələrilə belə açıqlanmışdır: "İbn Sinanın çoxmənalı əsərlərində sevgi təəssüratları musiqi ilə ifadə olunmuşdur. "Fi`l-Eşq"də sevginin onun üçün ahəngli, məlahətli bir səs olduğu söylənilir. Bu əsrarəngiz duyğu, inkişaf edən ölçü və mənəvi bütünlük birləşməsi zərif bir musiqinin yaranmasına vəsilə olur"[37].

Əl-Fərabi dəst-xəttini davam etdirib, İbn Sinadan sonra Şərq musiqi mədəniyyəti ənənələri ilə mükəmməl bilik nəzəriyyəsi yaradan Səfiyəddin (Səyf əd-Din) Əbdülmömin Urməvi (1216-1294) Yaxın və Orta Şərqdə öz dövrünün ən istedadlı musiqi nəzəriyyəçisi və mahir xəttatı kimi misilsiz şöhrət qazanmışdır. Urməvinin günümüzə qovuşan "Risalətü`l-Şərəfiyyə fi`n-Nisabi`t-Təlifiyya" və Kita`b əl-Ədvar" risalələri dövrün icabına (ehtiyacına) uyğun ərəb dililə qələmə alınsa da, bütünlüklə klassik Şərq musiqi nəzəriyyəsinin əsaslarını əks etdirir. Əl-Kindi və əl-Fərabi nəzəri üslublarının davamı olan təkmil Urməvi səs sistemi yeni komalarla (mikroxromatik interval ardıcıllığı ilə) şəkillənmiş, makamlar (ladlar) 17 bərabər hissəyə bölünməklə, olduqca kiçik səs tonları ilə tərtib olunmuşdur. Ustad "Şərəfiyyə" risaləsində tez-tez Fərabinin adını anıb, onun bir çox fikirlərinə yer verməklə yanaşı, nəzəriyyələrində əskik və yanlış gördüklərini dilə gətirmiş, öz mülahizələrində bilik hakimi Fərabinin böyük təsirini qeyd etmişdir.

Urməvinin "Kompozisiya nisbətləri və ritm elmi haqqında Şərəfiyyə risaləsi" ("Risaleyi-şərəfiyyə") kompozisiyanın əsaslarını işıqlandıran nəzəriyyələrlə – lad quruluşu, səs yüksəkliyi, ritm nəzəriyyəsilə bağlı araşdırma və təcrübələrlə, melodiya ahəngləri haqqında bilgilərlə zəngindir. Ustadın bütün risalələrində musiqi və əruzun nəzəri üslubları işıqlandırılmış, səsli nəzm incəsənətində musiqinin həm bədii, həm də ifa qaydaları tədqiq edilmişdir[38].

Öz dövrünün biliklərinə sahib olan gözəl xəttat, ədəbiyyatçı, şair,

---

[37] Süleyman Uludağ. İslam ve Musiki., Bayram Akdoğan İslam ve Musiki Sanatı Türk musikisi özəl sayısı 157 makale, s.154.

[38] Səfərova Z. SəfiyəddinUrməvi. Kompozisiya nisbətləri və ritm elmi haqqında Şərəfiyyə risaləsi. B., "Şərq-Qərb", 2006, s.10

bənzərsiz bəstəkar və mahir ud ifaçısı Səfiəddin Urməvi Şərq mədəniyyətində yalnız kamil nəzəriyyəçi kimi deyil, həmçinin özündən çox sonra Əbdülqadir Marağainin (1399-1436) yaradacağı daha təkmil səs düzəninin ilk qurucusu kimi də adını tarixə yazdırmışdır.

Ana (türk) dilindən savayı ərəb, fars dillərində yazıb-yaratmış qədim və yeni melodiyalar bəstəkarı, xanəndə, nəzəriyyəçi, şair, rəssam və xəttat Marağai İslam mədəniyyəti ilə təməli qoyulmuş "xət" incəsənətinin "mütləq", "reyhani", "sülüs", "nəzih" və "tövqi" üslublarının ustadı sayılırdı.

"Ca`me əl-Əlha`n" (Nəğmələr Məcmusu) adlı nəzəri bilgilər toplusunu 1405-ci ildə yazmağa başlayan Marağai sonsuz zəhmətilə ərsəyə gətirdiyi bu möhtəşəm əsəri illər sonra 1413-cü ildə başa çatdırmışdır. Böyük alimin daha sonra elmi-nəzəri təfsirləri ilə qələmə alınmış "Makasi`d əl-Əlha`n" (Nəğmələrin Məramı), "Ləhni`yyə" ("Melodiyalar"), "Əl-Ədva`r fi`ma`rifa ən-nağam ya`l-ədvar" (Səs düzümü dövrləri) və "Fəvaid` `aşara" ("On fayda) risalələri Şərq musiqi mədəniyyətinə bəxş edilən nadidə sənət inciləridir.

Ərəb xilafəti qanunları ilə yaşayıb-yaradan Marağai öz risalələrinin əksər qismini fars və Azərbaycan türkcəsi ilə yazmış olduğu qəzəllərilə tamamlamışdır:

Ey can-i cahan bəhr-i səfa bizni unutma,
Və`y mah-i cəbin mehr-lika bizni unutma
Hak din diləyir can`ü könül ömrün uzağı,
Verdim bu durur subh-i mesa bizni unutma
Hicrün kıladur hər nəfəsi sinəmi məcruh,
Bir gir bu cərahaqqa dəva bizni unutma.

Şərq nəzəri incəsənətində bir başqa türkəsilli musiqişünas alim – (Əbdüləziz Çələbinin oğlu, Əbdülqadir Marağainin nəvəsi) Mahmud Çələbi (vəfatı 1531) öz adı və sənət irsilə tanınmağa başlamışdı. Çələbinin doğum tarixi ilə bağlı dəqiq bilgiyə sahib olmasaq da, vəfatı yaradıcılıq tarixi ilə izlənilib, təsbit edilmişdir. "Türk musiqisinin qızıl dövrü"ndə Mahmud bin Əbdüləziz bin Əbdülqadir kimi tanınan, öz babası və atasının yaradıcılıq yolunu davam etdirən Mahmud Çələbi bu sənət halqası içərisində gözəl bəstələr yaratmış, özündən öncə var olan bütün musiqi bilgilərindən yararlanıb, nəzəri ixtiralarını gerçəkləşdirmişdir.

Şərqdə əski nəzəri üslubları davam etdirən daha bir Azərbaycan mütəfəkkiri – Fətullah Abdi`l Əziz İbrahim əş-Şəbarani əş-Şamaxı əş-Şirvani idi. İlk təhsilini atasından alıb gənc yaşlarında təhsilinin davamı üçün Şiraz

və Tus şəhərlərinə üz tutan Şirvani, 1435-ci ildə Səmərqəndə yerləşib, Uluq bəyin mədrəsəsində üsul-i fikih (islam qanunlarının nəzəri və əməli tətbiqi), cədəl (antik fəlsəfədə düşünmə və fikir yürütmə sənəti), məntiq, astronomiya, həndəsə, musiqi və digər riyazi elmlərlə bilgilənmişdir[39].

Ustadın qələmə aldığı "Əl-Faraid vua`l-Fəvaid fi Tavzihi Şərhi`l-Mulahhas", "Şərhu`l-Təzkirə fi-İlmi`l-Həyy`a" "Şərhu`l-Ənvar li-Əməli`l-Əbrar" risalələri onu Şərqdə elm və mədəniyyətin inkişaf etdiyi bütün bölgələrdə tanıtmışdır. "Məcə`llətun fi`l Mu`si`ka" (Musiqi qanunları) adlı traktatı ustadın musiqi sahəsində yeganə çalışmasıdır. Musiqinin nəzəri bilgilərini əhatə edən, kamil nitq və məntiqlə qələmə alınan bu əsər əzəmətli türk sultanı Fateh Sultan Mehmetə ithaf olunmuşdur.

XVIII əsrin sonu, XIX əsrin əvvəllərində siyasi münaqişələrə, daxili və xarici çəkişmələrə səhnə olan Azərbaycan Şimal və Cənub bölgələrinə parçalandı. Sözügedən tarixlərdə Arazın bu tayında baş qaldıran ictimai-siyasi hərəkətlənmələr mədəniyyətdən də yan keçmədi, əsrlərlə tərəqqi və təşəkkül etmiş müxtəlif elmlər, eləcə də ədəbiyyat və musiqi incəsənəti yeni təfəkkür dövrünün axtarışları içərisinə daxil olmağa başladı.

Bu tarixlərdə hələ orta əsrlərə xas elmi biliklər üslubu ilə fəaliyyət göstərən, musiqişünas Mir Möhsün Nəvvab (1833-1918) Azərbaycanın dilbər guşəsi – Qarabağda öz nəzəri-tətbiqi layihələrini gerçəkləşdirirdi. Geniş dünyagörüşü, davamlı mütaliələri və çalışqanlığı ilə kamilliyə ucalan Nəvvab ömrünün sonuna qədər Şuşada yaşayıb-yaratmış, nəzəri düşüncələrini şərhlərə çevirmişdir[40].

Mir Möhsün Nəvvab öz dolğun tədqiqatları, təfsir, səciyyə və məzmun üslubu ilə orta əsrlərin sonuncu nəzəriyyəçi alimləri sırasında yer alır. Onun klassik ənənələrlə əhatə olunmuş "Vizuhil-Ərqa`m" (Musiqi istilahlarının şərhi) bilik məcmusu Yaxın Şərqdə əl-Fərabi ilə əsası qoyulan, Urməvi və Marağai yaradıcılığı ilə inkişaf etdirilən nəzəri təfsir və açıqlamaların var olduğu son risalələrdəndir. Mir Möhsün Nəvvabın musiqi çalışmalarından olan "Kəşfül-Həqiqətül-Məsnəvi" traktatında ayrı-ayrı muğam özülləri, melodiya və bədii mətnlərin uzlaşması, müxtəlif səs qruplarının müəyyən qayda ilə birləşməsi, ifaçı, dinləyici mədəniyyəti, Azərbaycan xalqının sahib olduğu çalğı alətlərinin düzgün, ahəngli səslənməsi və sıralanan bu xüsusiyyətlərin ən münasib şəkildə həyata keçirmə qayda-

[39] Səfərova Z. Fətullah Şirvani. Musiqi məcəlləsi. B., "Şərq-Qərb", 2006, s.3
[40] Səfərova Zemfira. Azərbaycanın musiqi elmi XIII-XX əsrlər., B., Azərnəşr, 2006, s.182.

ları əks olunmuşdur[41].

XX əsrin birinci yarısında Şərq musiqi incəsənətinin müasir şərhləri musiqişünas-alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim Üzeyir Hacıbəylinin (1885-1948) təfsirlərilə gerçəkləşir, müasir musiqi mədəniyyəti yeni mülahizələr, elmi baxışlar, çeşidli mövzu və janrlarla əks olunurdu. Şərq ladlarının yeni tədqiqat və nəzəriyyəsilə hasil olan "Azərbaycan xalq musiqisinin əsasları" risaləsi bəstəkarın Azərbaycan və Şərq mədəniyyətinə bəxş etdiyi misilsiz töhfə və çoxsahəli elmi düşüncələrlə işıqlanmış nəzəri musiqi qanunlarıdır.

"Səs sistemi"ni daha çox səs pərdələrilə zənginləşdirib, zamanla musiqi tarixinə orijinal ədəbiyyatlar bəxş edən bütün türkəsilli mütəfəkkirlərin elmi risalələrini tədqiq etdikcə, qələmə alınmış nəzəri-musiqi şərhləri arasında bənzərliyin və ortaq düşüncələrin var olduğu görülməkdədir.

Musiqi sənətinin keçmiş qaynaqları ilə inkişaf edib, bədii üslub və özünəxas meyarları ilə formalaşan Azərbaycan musiqi incəsənəti böyük musiqişünas-alim Ü.Hacıbəylinin elmi-nəzəri tədqiqatları, musiqi nəzəriyyəsi şərtləri və onun əsas müddəaları ilə təkmilləşmiş mükəmməl səs sistemilə izah olunmuşdur[42].

Bütün dövrlərdə müasir səslənən musiqi incəsənəti akademik metodlar işığında bir sənət fəlsəfəsi kimi bu nəzəriyyənin bilik, əməli fəaliyyət qanunlarını və elmi-nəzəri mülahizələrini əks etdirir.

Beləliklə, yekun olaraq, qeyd etmək istərdik ki, IX – X əsrlərdə İslam musiqi məntiqi və orta əsr musiqişünaslarının zəka birliyi ilə yaradılmış monumental "musiqi bilik sistemi" – nəzəri qaynaqları bərqərar edən inkişaf mərhələləri ilə daha təkmil elmi maraqlara təkan vermiş, ali düçüncələri əks etdirən mənəvi-intellektual dəyərlər, nəzəri müddəalar, bilik intizamı və təlim ardıcıllığı ilə bu incəsənətin ən qiymətli təsir qanunlarını birləşdirmişdir.

Dissertasiyanın **Nəticə** bölümü tədqiqatın yekunudur:

– Əməvilər dövründə Bizans mədəniyyətinin təsiri ilə baş qaldıran və Abbasilər hakimiyyətilə İslam mədəniyyətinə nüfuz edən bir çox elm və sənət sahələri kimi ədəbi incəsənətin məzmun bütünlüyü də tədricən tamamlanırdı.

– Əməlı və nəzəri fikir mübadiləsi ilə şəkillənən musiqi tədqiqatları İslam alimlərinin özünəməxsus ümumelmi fəlsəfi baxışları və tətbiq üsulla-

---

[41] Yenə orada, s.187.

[42] Səfərova Z. Ü.Hacıbəyov yaradıcılığında nəzəri və estetik problemlər. B., Elm, 1985. s.168.

rı ilə təcəssüm olunurdu.

– IX–X əsrlərin elmi-məntiqi açıqlamaları “aləmi ilm” – bilik dünyasının “İkinci ustad”ı kimi qəbul olunan Abu Nasr əl-Fərabi tədqiqatları ilə inkişaf yoluna istiqamətlənmiş, səs və musiqi anlayışları digər dəqiq fənlər kimi məzmun və tədqiqat obyektlərinin çoxsahəli mənaları ilə şərh edilmişdir.

– Əl-Fərabinin nəzəri biliklər təcrübəsi – interval ardıcıllığı, səslərin bədii xassələri, ahəng uyğunluqları, rəngarəng mikroxromatik interval axıcılığı, kompozisiya əsasları və çalğı alətlərini səsləndirmə üsulları musiqi irsi mədəniyyətinə çevrilmiş, zamanla türkəsilli xələflərin tədqiqat və şərhlərində ortaq düşüncə ilə paylaşılmışdır.

– Səfiyəddin Urməvi və Əbdülqadir Marağainin keçmiş bilik anlayışları, terminoloji şərhləri ilə formalaşan “sistemlilik” üslubu və kamil ixtiraları dünya musiqi nəzəriyyəçilərinin geniş tədqiqat mövzularıdır.

– XX əsrin əvvəllərində klassik ənənələri əks etdirən Mir Möhsün Nəvvabın “Vizuhil-Ərqa`m” (Musiqi istilahlarının şərhi) risaləsi əl-Fərabi üslubu ilə tədqiq olunan, Səfiyəddin Urməvi və Əbdülqadir Marağai yaradıcılığı ilə inkişaf etdirilən nəzəri təfsir və açıqlamaların son nümunəsidir.

– XX əsrin birinci yarısında Azərbaycanda nəzəri musiqi bilgiləri böyük mütəfəkkir, bəstəkar Üzeyir Hacıbəylinin müasir nəzəri təfsirlərilə gerçəkləşir, səs düzümləri (ladlar) Avropa səs sistemilə uzlaşır, sivilizasiyalar mərkəzi olan Şərqdə ilk opera janrının əsası qoyulur, professional musiqi məktəbinin inkişaf perspektivləri müəyyənləşirdi.

– Dissertasiyada əl-Fərabinin geniş mənalarla əhatə olunmuş musiqi bilikləri tədqiqatları, fəlsəfi düşüncələri və kamil ixtiraları Şərq musiqi incəsənəti ənənələri və musiqi elminin nəzəri dəlilləri ilə açıqlanmalı, İslam mədəniyyətilə təşəkkül etmiş bu sənətin tarixi qaynaqları və mülahizələri paylaşılmalıdır.

## Tədqiqat məzmunu əks etdirən elmi məqalələr:

1. Şərq musiqi mədəniyyətində əl-Fərabi elmi yaradıcılığının şərh və izahları. // “Musiqi dünyası” jurnalı. N 1-2, Bakı, 2011

2.”Şərq musiqi xəzinəsinin incisi – qanun”, // Doktorların və gənc tədqiqatçıların XVIII Respublika elmi konfransının materialları., II cild, Bakı – 2013.

3.”Qədim çalğı alətləri Şərq mədəniyyətinin sənət xəzinəsidir, // Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri”. XIV Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı – 2015.

4. “Şərq fəlsəfəsində əl-Fərabinin din, dil, səs və musiqi nəzəri şərhləri”. // “Harmony” международный музыкальный культурологический журнал., http://harmony.musigi-dunya.az Выпуск №13/ 2013.

5. “İslam təməl qaynaqları ilə yaranan əl-Fərabi fəlsəfəsi və musiqi nəzəriyyəsi”. // “Harmony” международный музыкальный культурологический журнал, http://harmony.musigi-dunya.az Выпуск №14 / 2015.

6. İslam mədəniyyətində musiqi çağları və Fərabinin fəlsəfi musiqi nəzəriyyəsi. //IX. İnternational turkic culture, art and protection of cultural heritage symposium/art activity. İtaliya-Verona, 2015.

7. Əl-Fərabi yaradıcılığında elmi-tətbiqi musiqi nəzəriyyəsi. // Rast Uluslararası Muzikoloji Dergisi. III cilt, Sayı 1. Türkiyə, 2016.

8. Əl-Fərabi fəlsəfəsində bilik, qavrama və məntiq anlayışı. // Mədəniyyət.az” jurnalı. №4, Bakı, 2016.

9. Musiqi mədəniyyətində Fərabi fəlsəfəsi və nəzəri düşüncələrinin məqsəd və təyini. // “Musiqi dünyası” jurnalı. N 1-2, Bakı, 2016.

**Эльмира Агарагим гызы Ахундова**

## Изобретения и научно-теоретические исследования Аль-Фараби в Исламской музыкальной культуре

## РЕЗЮМЕ

Диссертация состоит из введения, 2-х глав, 6-ти разделов, заключения, библиографии и сайтографии. Во введении подчеркивается актуальность, степень разработанности темы, цели и задачи, научное и практическое значение исследования.

В работе в исторической последовательности дается научная оценка творческому наследию великого мыслителя Востока аль-Фараби в контексте Исламской музыкальной культуры. Подчеркивается бесценность трудов, созданных им в области музыкальной теории, говорящих о фактах ряда открытий касающихся музыкальных звуков, содержания и формы, анализа произведения, музыкальной терминологии, а также исполнительских возможностей и изобретений новых музыкальных инструментов.

Как яркий представитель школы восточной перипатетики научное наследие аль-Фараби построено на логических и этико-эстетических принципах, идейное воплощение которых прослеживается в музыкально-теоретической концепции великого мыслителя. На протяжении многих столетий в лице Азербайджанских мыслителей Сафиаддин Урмеви, Абдулькадир Марагаи, Мир Мовсум Навваб, Узеир Гаджибейли и т.д. можно увидеть продолжателей научных идей аль-Фараби в области музыкальной теории, что подводит нас к мысли о неисчерпаемости научного наследия великого мыслителя.

I глава – **«Истоки формирования музыкальной культуры в средние века»** состоит из 3-х разделов: **1.1. «История культуры периода исламского возрождения»; 1.2. «Теоретические музыкальные знания в исламской культуре и практика научных интерпретаций в трактовке аль-Фараби»; 1.3. «Музыкальная терминология, этико-эстетические и художественные ценности в исследованиях аль-Фараби по логическим и традиционным знаниям»**.

II глава – **«Теоретико-практическая и методологическая трактовка музыкальной науки аль-Фараби»** состоит из 3-х разделов: **2.1. «Музыкальная классификация аль-Фараби – содержание, анализ и практические стили», 2.2. «Вклад аль-Фараби в классическую музыкальную теорию: естественные, неестественные звуки и исполнительские возможности музыкальных инструментов», 2.3. «Музыкально-теоретические источники и научные изобретения аль-Фараби».**

В **заключении** даются выводы и обобщения проведенного исследования.

**Elmira Agharahim Akhundova**

**Invention and scientific-theoretic research of Al-Farabi in Islamic musical culture**

**SUMMARY**

Thesis consists of introduction, two chapters, six sections, conclusion, bibliography and web site science. Actuality, degree of development of topic, purpose and tasks, scientific and practical importance of research are straightened in introduction.

Scientific evaluation of artistic heritage of Great Thinker of East Al-Farabi in the context of Islamic Musical Culture is stated in historic subsequence within the frame of this work. Priceleness of works, created in the field of musical theory, expressing on the facts of several openings, referring to musical sounds, content and form, analysis of work, musical terminology, as well as, performance possibilities and invention of new musical instruments, are stressed.

Like valuable representative of oriental school peripatetic scientific heritage of Al-Farabi based on logic and ethic-aesthetic principles, ideal impression, observing at musical –theoretic conception of Great Thinker. We can see followers of scientific idea of Al-Farabi in the field of musical theory in the person of Azerbaijani thinkers Safiaddin Urmevi, Abdulkadir Maraghai, Mir Movsum Navvab, Uzeyir Hajibayli, this leads us to endless scientific heritage of Great Thinker.

I chapter- **“Resources of formation of musical culture in middle century” consists of 3 sections:**

**1.1. “History of culture period of Islamic renaissance”;**

**1.2. “Theoretical musical knowledge in Islamic culture and practice of scientific interpretation in explanation of Al-Farabi”;**

**1.3. “Musical terminology, ethical –aesthetic and artistic value in researches of Al-Farabi on logic and traditional knowledge”.**

**II Chapter- “Theoretical –practical and methodological explanation of musical science of Al-Farabi consists of three sections:**

**2.1. “Musical classification of Al-Farabi-content, analysis and practical style”;**

**2.2.Merit of Al-Farabi to classic musical theory: natural and non natural sounds and performance possibilities of musical instruments”,**

**2.3. “Musical-theoretic resources and scientific inventions of Al-Farabi”**

Results and summaries of carried out research are stated in **conclusion**.

---

Çapa imzalanıb: 16.03.2016.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ
имени УЗЕИРА ГАДЖИБЕЙЛИ**

*На правах рукописи*

**ЭЛЬМИРА АГАРАГИМ гызы АХУНДОВА**

# ИЗОБРЕТЕНИЯ И НАУЧНО-ТЕОРЕТИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ АЛЬ-ФАРАБИ В ИСЛАМСКОЙ МУЗЫКАЛЬНОЙ КУЛЬТУРЕ

6213.01 – Музыкальное искусство

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по искусствоведению

**Баку – 2016**